*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 12-13 (9220-9221) | 15 iyul 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik


# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



**İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirdi. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən alındığını, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazinin işğaldan azad edildiyini diqqətə çatdırdı. “Münaqişə tezliklə həllini tapmalı, status-kvo dəyişilməlidir”, - deyən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğuladı.

“Münaqişənin həllinin yeganə mümkün variantı mərhələli həll variantıdır”, - deyən dövlətimizin başçısı buna nail olmaq üçün həmsədr ölkələrin və ATƏT-in Ermənistana ciddi təzyiq göstərmələrinin vacibliyini diqqətə çatdırdı.

Bu ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xaricə səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyən Prezident İlham Əliyev çıxışında iqtisadi inkişaf proseslərindən də danışdı, cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu dedi. Bildirdi ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb. “2016-cı il tarixdə dərin islahatlar dövrü kimi qalacaq”, - deyən dövlətimizin başçısı strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini bildirdi.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı ixracyönümlü iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi. Prezident İlham Əliyev dedi ki, bu il ölkədə dərman istehsalına başlanması, sənaye mərkəzlərinin yaradılması istiqamətində, həmçinin Mingəçevirdə yüngül sənaye kompleksinin təməlinin qoyulması, hər bir rayonun sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı işlər davam etdirilir.

Azərbaycanda xalçaçılıq sənayesinin, baramaçılığın, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi, zəruri ərzaq məhsulları ilə təminatın, ət və süd məhsullarına olan tələbatın ödənilməsi, meliorativ tədbirlərin davam etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, o cümlədən turizm sənayesinin yaradılması istiqamətində görülən tədbirlərin davamlı olması ilə bağlı tapşırıqlarını verən dövlətimizin başçısı son illərdə Bakıda keçirilən beynəlxalq tədbirlərin, həmçinin Formula-1 Avropa Qran-prisinin ölkəmizdə turizmin inkişafına ciddi dəstək verdiyini bildirdi. Bundan əlavə, Prezident İlham Əliyev “ASAN xidmət”in fəaliyyətinə toxunaraq artıq bu quruma yarandığı vaxtdan indiyə qədər 10 milyon müraciət edildiyini, ölkədə 9 “ASAN xidmət” mərkəzinin fəaliyyət göstərdiyini, bu il isə Masallı və Qəbələdə yeni mərkəzlərin yaradılacağını diqqətə çatdırdı. Əsassız yoxlamaların azaldılması ilə bağlı verdiyi tapşırıqların müvəffəqiyyətlə icra olunduğunu deyən Prezident İlham Əliyev 2016-cı ilin ikinci yarısının da uğurlu olacağına əminliyini ifadə etdi.

# Sahibkarlar üçün forum keçirilmişdir




**İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonun Qazaxbəyli kəndində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirilmişdir.**

İşgüzar forumun keçirilməsində əsas məqsəd sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizmi barədə geniş məlumat vermək, Qazaxda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələrin hazırlanıb təqdim olunması, sahibkar-müvəkkil kredit təşkilatı əlaqələrinin möhkəmləndirilməsi, sahibkarların invenstisiya layihələrinin maliyyələşdirilməsi və digər məsələlər olmuşdur. Forumda bank rəhbərləri və 70-ə yaxın sahibkar iştirak etmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq respublikamızda, eləcə də rayonumuzda sahibkarlığın inkişafı ilə bağlı dövlət səviyyəsində görülmüş işlərdən, həyata keçirilmiş tədbirlərdən danışmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev sahibkarlara güzəştli kreditin verilməsinin mexanizmi, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi və digər məsələlər barədə danışmışdır.

Sonra foruma dəvət olunmuş sahibkarlardan Aşağı Salahlı kəndindən Namiq Allahverənov, Hüseynbəyli kəndindən Kərəm Nəbiyev, Qazaxbəyli kəndindən Namiq Yusibov, Birinci Şıxlı kəndindən Namiq Məmmədov, Xanlıqlar kəndindən Vilayət Adıgözəlov bir sıra təkliflərlə çıxış etmişlər. Səsləndirilən təkliflərdə sahibkarlığın inkişafına kömək məqsədilə rayonda soyuducu kameraların tikilməsinə, 100 baş və 50 baş cins mal almaq üçün güzəştli kreditlərin verilməsinə ehtiyac olduğu söylənilmişdir.

Sonra sahibkar Arzuman Abdulkərimov çıxış edərək süd emalı zavodu və soyuducu kameralar tikmək istədiyini bildirmişdir. Sahibkarlar tərəfindən rayonda sahibkarlar şurasının yaradılmasına dair təkliflər verilmişdir.

Tədbirin sonunda slayd vasitəsilə “Mətanət-A” şirkətinin əməkdaşı Mais Qasımov Qazax Əhəng zavodu haqqında forum iştirakçılarına məlumat vermiş və zavodun layihəsi təqdim olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq sahibkarlığın inkişafına kömək məqsədilə rayonda görülmüş işlərdən və bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışmışdır.

## 2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Babaşov Rəcəb Abas oğlu | Rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti Başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

*Qeyd:* **1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**
**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

BAŞ REDAKTORDAN

# İNSANLARIN İNAMI QAYIDIR

**İnsan həyatında ən əhəmiyyətli duyğulardan biri inamdır. Heç kimə sirr deyil ki, insan insana etibar etməsə, həyatda inamla yaşamasa heç bir uğur qazana bilməz. Özünü boşluqda hiss edər. Hər an düşmək, yıxılmaq qorxusuyla yaşamağa başlayar. İnsanın inamı sarsıldımı, qırıldımı digər mənfi duyğular üstünə yürüşə başlayar. Yerdən də, göydən də əlini üzər. Belə insanın söz azadlığı olmaz. Nə isə söyləmək istəyəndə min yol düşünər: “Görəsən bir söz desəm məni düzgün başa düşərlərmi, anlayarlarmı?” - deyər. İnam, etibar duymadığın bir mühitdə yaşamaq doğurdan da çətindir.**

Danılmaz faktdır ki, neçə illərdir qazaxlılar belə bir çətin, ümidsizlik, inamsızlıq içində yaşamışdır. Sanki dərin bataqlığa düşərək buradan nə vaxtsa çıxa biləcəklərinə inamı itirmişdilər. Çünki hər gün döyülən qapıdan hər dəfə naümid qayıtmış, boş vədlər, sözlər eşitmişdilər. Evlərinə, ailələrinə əliboş, məyus qayıdaraq özləri öz gözlərindən düşərək gücsüz, aciz olduqlarını hiss etmişdilər.

Deyirlər ümid sonda ölür. Axı, işıq gəlməyən yerə necə ümid etmək olar? Bu, öz-özünü aldatmaq deyilmi? Ümidi öldürmək insanı öldürməkdən çətindir. Dərindən düşünəndə görürsən ki, həqiqətən də ümidi öldürmək çox çətindir. Bu, həyatın sonu deməkdir. Lakin ümidsiz də yaşamaq olmaz. Nəyinsə olmayacağını bildiyin halda yenə də qəlbinin dərinliyində ümid işığı olur.

Qazaxlıların qəlbində bu ümid işığı Rəcəb Babaşovun Qazax rayon İcra Hakimiyyətinin Başçısı təyin olunan gün yandı. Elə ilk gündən bütün qaranlıqlar işıqlandı. Qazaxın küçələrini, kəndlərini qarış-qarış gəzərək harda nə problem, çatışmazlıq varsa onları üzə çıxartdı, önə çəkdi. Yerindəcə məqsədyönlü qərarlar çıxararaq aidiyyatı şəxslərə müvafiq tapşırıqlar verdi. Bir neçə günə şəhər elə bir səliqə-sahmana salındı ki, insan bu gözəlliklərə baxdıqca heyran qaldı. Şəhərin girişindən çıxışına kimi hər tərəf tərtəmiz oldu.

İnsanı zamanın məhsulu sayırlar. Əslində isə zamanı insan yaradır. Zaman insanın məhsuludur. Ən pis zamanda belə yaxşı, bacarıqlı, səriştəli insan zamanı dəyişir. Rəcəb Babaşov Qazaxın zamanını dəyişdi. Artıq pis zamanlar arxada qaldı və biz yaxşı zamana doğru iri və iti addımlarla irəliləyirik. May günəşi doğdu rayon sakinlərinin üzünə. Bağlı qapılar açıldı, insanlar öz problemlərini, dərdlərini deməyə başladılar. Ürəklərin dərdi əridi, üzlərdəki gərginlik yoxa çıxdı, əsəblər bir daha gərilmədi. Bir sözlə, həyat yeni bir axara düşdü. Yenilik, quruculuq və yaradıcılıq adlı bir axara.

Bir zaman rayon rəhbərliyinin qəbuluna düşmək, söz demək üçün aylarla ayaq döyürdülər icra hakimiyyətinə. Açılmayan bir qıfıla dönmüşdü bu ali dövlət idarəsi. Ya növbə çatmırdı, ya da növbə çatanda qəbul zamanı bitirdi. Beləcə problem problem kimi qalırdı, qalaqlanırdı. Günlər aylara, aylar illərə dönürdü. Heç nə dəyişmirdi.

May ayının 19-dan isə hər şey dəyişib. Daha qazaxlılar zamanı gözləmir, zaman onları gözləyir. Gün ərzində səhərdən gecəyə qədər fasiləsiz olaraq vətəndaşlar rahat şəkildə qəbul edilir. Hər kəsin ayrı-ayrılıqda problemləri dinlənilir, həlli istiqamətində aidiyyatı şəxslərə müvafiq tapşırıqlar verilir. Elə bu səbəbdən də gün ərzində insanlar rayon İcra Hakimiyyətinə, Rəcəb Babaşovla görüşə tələsir. İcra başçısı vətəndaşları tək qəbul günlərində deyil, başqa günlərdə, hətta şənbə və bazar günləri də qəbul edir.

Şəhər sakinləri ilə yanaşı Rəcəb Babaşov kənd sakinlərinin də problemlərini öyrənir. Kənd sakinlərinin onunla görüşmək üçün şəhərə gəlməsinə ehtiyac yoxdur. Çünki cənab başçı özü onlarla görüşə gedir. O, hər gün bir deyil, bir neçə kəndə səfər edir. Kənd camaatı ilə görüşlər keçirir. Onların problemlərini öyrənərək tez bir zamanda həlli üçün müvafiq tapşırıqlar verir. Ağsaqqalından tutmuş azyaşlısına qədər hər kəsin yaşayış şəraiti ilə maraqlanır. Diqqət və qayğı göstərir. Elə bir mehribanlıqla, mərhəmətlə insanlara yanaşır ki, sanki onların ailə üzvlərindən biridir. Sanki bu torpaqda doğulub, buranın suyunu içib, havasını alıb. Sanki uzaq bir səfərə gedib sonra öz doğma vətəninə, elinə - Qazaxa dönüb.

Rəcəb Babaşovun kənd sakinləri ilə görüşü birbaşa sərhəd kəndlərindən başladı. Burada o, problemlərin birbaşa həllinə keçdi. Düşmənlə üz-üzə dayanan Məzəm kəndində təhlükəli mövqedə, düşmənin atəş nöqtələrinə yaxın məsafədə yerləşən evlərin qarşısında hündür hasarlar çəkdirərək düşmənə sipər yaratdı. Hal-hazırda kənd sakinləri öz həyətlərində rahatlıqla məişət işləri ilə məşğul olurlar. Kənd sakinləri inanırlar ki, onların taleyi etibarlı əllərdədir. Öz kəndlərində rahat yaşaya bilərlər və onları heç bir təhlükə gözləmir.

Deyirlər insan şəraitdən asılıdır. Əslində şəraiti insan yaradır. Rəcəb Babaşov insanlara işləmək, fəaliyyət göstərmək, qurub-yaratmaq üçün şərait yaradır. Bu da rayon sakinlərinə necə deyərlər qol-qanad verir. İnsanları daha həvəslə, daha böyük ruh yüksəkliyi ilə çalışmağa sövq edir. Bu gün Qazaxda elə bir sağlam mühit yaranıb ki, insanlar bu mühitdə özlərini sözün əsl mənasında yaxşı hiss edirlər. Hər kəsin üzündə rahatlıq, məmnunluq, inam, etibar var.

İnam! İnsanı yaşadan, ona qol-qanad verən, qaranlıq gecələrdən işıqlı sabahlara çıxaran bir qüvvə. İnam! Hər bir çətinliyin öhdəsindən gəlməyə sövq edən, insanı insan kimi sınmağa qoymayan, içində bir ümid çırağı yandıran ilahi bir varlıq. Qoy bu gün rayonumuza qayıdan bu inam daimi, əbədi olsun. Qoy ömrümüzə, həyatımıza hər zaman şəfəq saçsın. Başımız üstündə alışan günəş kimi.

**Elçin İSMAYIL**

# "GÖRÜŞLƏR SƏMƏRƏ VERİR"

## RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏCƏB BABAŞOV KƏNDLƏRDƏ KEÇİRDİYİ GÖRÜŞLƏRDƏ PROBLEM VƏ ÇATIŞMAZLIQLARI YERİNDƏCƏ ÖYRƏNMİŞ, ONLARIN HƏLLİ İSTİQAMƏTİNDƏ KONKRET TAPŞIRIQLAR VERMİŞDİR

**Problemləri yerində öyrənmək, əhalini narahat edən məsələləri onların dilindən eşitmək olduqca səmərəli və vacibdir. Bu, həm problemi dərindən və ətraflı öyrənməyə kömək edir, həm də kənd sakinləri qaldırdıqları məsələlərin həllini əyani şəkildə görürlər. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən kəndlərdə yerli sakinlərlə görüşlər keçirir. Rəcəb Babaşov keçirilən görüşlərdə əhalini narahat edən problemləri və qayğıları dərindən öyrənir, onların həlli istiqamətində elə görüş zamanı konkret tapşırıqlar verir. Bu barədə qəzetimizin ötən sayında dərc etmişdik.**




Rayon rəhbərliyi növbəti görüşlərini I Şıxlı, II Şıxlı, Yuxarı Salahlı, Hüseynbəyli, Xanlıqlar, Ağköynək, Orta Salahlı, Aşağı Salahlı, Qazaxbəyli, Dəmirçilər, Daş Salahlı, Ürkməzli, Çaylı və Kommuna kəndlərində keçirmiş, əhalini narahat edən problemləri öyrənmişdir. Yerli sakinlər tərəfindən qaldırılan bütün məsələlərə icra başçısı diqqətlə və həssaslıqla yanaşmış, onların həll olunması üçün aidiyyatı təşkilatlara elə görüş zamanı konkret tapşırıqlar vermişdir.

Görüşlərə iyunun 15-də rayonun I Şıxlı kəndindən başlanıldı. Kənd camaatının toplaşdığı görüşdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirdi ki, "Mən problem və çatışmazlıqları sizin özünüzdən eşitmək üçün sizinlə görüşə gəlmişəm. Mən eşitdiyimə deyil, gördüyümə inanıram. Ona görə də bu gün sizin yanınızdayam. Düzdür problemlər var. Bunlar zaman-zaman buraxılan səhvlərin nəticələridir. Harda problem varsa, deməli orda insanların haqqı tapdalanıb".

Tədbirdə iştirak edən kənd sakinləri rayon rəhbərliyinin səmimi sözlərini böyük ruh yüksəkliyi ilə qarşıladılar. Kənd ağsaqqalı Şəmşəd İbrahimov söz alıb Rəcəb Babaşova xoş gəldin deyərək kənd sakinləri adından minnətdarlığını bildirdi. Kənd sakinləri Fəxrəddin Vəliyev, Nizami Məmmədov, Fərhad Mustafayev, Vahid Məmmədkərimov, Məmməd Musayev, Telman Məmmədov, Tahir Musayev və Məhərrəm Bəşirov çıxış edərək kənddəki mövcud problemlərdən danışdılar. Qeyd etdilər ki, Kürün sahillərindəki bərkidilmə işləri yarımçıq qaldığından sel sularının kəndin sahələrini yuması təhlükəsi yaranıb. Çıxış edənlər fermer təsərrüfatı yaradılmasından, işsizlik və içməli su problemindən də danışdılar.

Günün ikinci görüşü rayonun ən böyük yaşayış məntəqələrindən olan II Şıxlı kəndində keçirildi. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək bildirdi ki, "Mən reallığı, mövcud vəziyyəti bilmək üçün sizin yanınıza gəlmişəm. Odur ki, mənə əsl reallığı deyin, problemləri bildirin. Qeyd etdi ki, mən tez-tez sizinlə görüşə gələcəyəm. Çünki məqsədim, məramım xalqa xidmət etməkdir. Bunun üçün əlimdən gələni əsirgəməyəcəyəm".



Kənd ağsaqqalı Oruc Mansurov söz alaraq cənab Rəcəb Babaşova kənd sakinləri adından öz minnətdarlığını bildirdi. Eyni zamanda problemlərdən də söz açdı. Qeyd etdi ki, kəndimizdə kəndarası yol problemi neçə illərdir ki, öz həllini tapmır. Güclü yağışlar zamanı isə yollar çox pis vəziyyətə düşür. Bununla yanaşı Sarıvəlli kənd məktəbi də olduqca yararsız vəziyyətdədir.

Kənd sakinlərindən İsmayıl Yusifov, İlham Musayev, Nərminə Kələşova, Nizami Qarayev, İndira Mədətova, Məleykə Musayevə və başqaları çıxış edərək şəxsi və ümumi problemlərdən danışdılar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edən kənd sakinlərinin səsləndirdikləri problemlərə öz münasibətini bildirdi və qaldırılan problemlərin həlli ilə əlaqədar konkret tapşırıqlar verdi.

Sonra Rəcəb Babaşov kənddəki şəhidlər xiyabanına baş çəkdi və oradakı çatışmazlıqların aradan qaldırılması üçün aidiyyatı qurumlara tapşırıq və tövsiyələrini verdi.



Yuxarı Salahlı kəndində keçirilən görüş də çox işgüzar və səmərəli oldu. Rəcəb Babaşov şəhid ailələrini yanına dəvət edərək qeyd etdi ki, "Sizin övladlarınız bu gün bizim, bütün Azərbaycanın övladlarıdır. Siz ən yüksək diqqət və qayğıya layiqsiniz". Rəcəb Babaşov çıxışı zamanı indiyə qədər buraxılan səhvlər ucbatından kənd əhalisinin torpaqdan uzaq düşdüyünü qeyd etdi və bunu doğuran səbəblərdən danışdı. Bildirdi ki, indiyə kimi kəndli su ilə, texnika ilə, gübrə və dərmanlarla vaxtlı-vaxtında təmin edilməmişdir. Bu da son nəticədə kəndlinin əlinin işdən soyumasına və əhalinin torpaqdan uzaq düşməsinə gətirib çıxarmışdır. R.Babaşov bu gün rayondakı bütün uşaq bağçalarında, səhiyyə ocaqlarında, təhsildə və s. sahələrdə şəffaflığın təmin edilməsindən də söz açdı.

Görüşdə söz alan kənd sakinlərindən Vəzir Eminov, Letura Gərayeva, Sultan Vəkilova, Məmləkət Umudova, Nazim Bayramov, Eldar Kəlayev, Abdulla Məmmədov, Məhəmməd Vəkilov və başqaları kənddə olan mövcud problemlərdən danışdılar. Bildirdilər ki, kəndin böyük olmasına baxmayaraq uşaq bağçası yoxdur. Bu da qadınların işlə məşğul olmasına maneçilik yaradır. Qeyd olundu ki, kəndin arasında qoyulmuş işıqlar tamamilə yanmır. Həmçinin tibb məntəqəsi çox pis vəziyyətdədir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edən kənd sakinlərini diqqətlə dinlədikdən sonra bildirdi ki, hər bir problem ətraflı öyrəniləcək və onlar mütləq zaman-zaman öz həllini tapacaqdır.

Daha sonra cənab başçı aprelin əvvəllərində ermənilərə qarşı döyüşlərdə mərdliklə şəhid olmuş Elvin Namazovun qəbrini ziyarət etdi. Şəhidin atası Məmməd kişi onlara göstərdiyi diqqət və qayğıya görə icra başçısına ailəsi adından öz minnətdarlığını bildirdi.

İyunun 22-də rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Xanlıqlar kəndinin sakinləri ilə görüş keçirdi. Sakinlərlə görüşən icra başçısı qeyd etdi ki, Xanlıqlar kəndi demək olar ki, rayon mərkəzinə birləşməsinə baxmayaraq problemləri də az deyildir. Bildirdi ki, bütün şəhid ailələrinə, müharibə veteranlarına böyük diqqət və qayğı göstərilməlidir. Yeni iş yerləri açılmalı və işsizlik aradan qaldırılmalıdır.

Kənddəki problemlər kənd sakinlərinin çıxışı zamanı bir-bir səsləndirildi. Xanlıqlar kənd məktəbinin müəllimi Xatın Hüseynxanova çıxış edərək rayon rəhbərliyinə onlarla görüşə gəldiyi üçün kənd sakinləri adından öz minnətdarlığını bildirdi.

Kənd sakinlərindən Gülafət Qocayeva, şəhid anası Rəxmayə Süleymanova, şəhid ailəsindən Leyli Budaqova, Sədaqət Nəsibova, Nənəxanım Vəliyeva, Filiz Məmmədov, İbrahim Həmşəyev, Sevil Qurbanova, Vilayət Adıgözəlov, Sinəxanım Şabanova, Kənan Əşrəfov, Amalya Nuriyeva çıxış edərək kənddə mövcud olan problemlərdən, onları narahat edən məsələlərdən danışdılar. Qeyd etdilər ki, məktəbdə kombi sistemi var, lakin qaza qoşulmayıb. Fermerlərə güzəştli kredit verilməsi, işıqların kabel sisteminə keçirilməsi mövcud problemlər kimi görüşdə səsləndirildi.

Rayon rəhbərliyi kənd sakinləri ilə söhbəti zamanı bildirdi ki, bu gün ölkəmizdə digər sahələrə olduğu kimi kənd təsərrüfatına da böyük diqqət və qayğı göstərilir. Hazırda torpaq, su və kənd təsərrüfatının digər sahələrinin inkişafı ilə əlaqədar dövlət proqramları hazırlanır. Yaxın günlərdə onların icrasına başlanılacaqdır.

Görüş başa çatdıqdan sonra R.Babaşov kənddəki şəhidlər abidə kompleksinə baş çəkdi. Sakinlər burada öz qüvvələri ilə müəyyən işlər görmüşlər. Lakin bunlar yetərincə deyil. İcra başçısı kompleksin ətrafına hasar çəkilməsi, yerə tamet plitə döşənməsini tapşırdı.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov həmin gün Ağköynək kəndində də görüş keçirdi. Kəndin ən yaşlı sakini - 99 yaşlı Mustafa Vəliyev rayon rəhbərliyinə xoş gəldin dedikdən sonra problemləri sadaladı.

Sakinlərdən Arif Musayev, Aygün Abdullayeva, Arzuman Xasməmmədli, Səhrəddin Məmmədov, Şofiq Hacıalıyev və başqaları kənddəki problemlərdən söz açdılar. Problemləri bir-bir sadalayan kənd sakinləri rayon rəhbərliyinin diqqətini kənddə örüş yerinin az olmasına, içməli suyun olmamasına, suvarma kanallarının əsaslı təmir edilməsinə və başqa çatışmazlıqlara yönəltdilər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşə yekun vuraraq qaldırılan məsələlərin qısa müddətdə həll ediləcəyini bildirdi.

Günün növbəti görüşü Hüseynbəyli kəndində oldu. Burada da kənd sakinləri rayon rəhbərliyini böyük ruh yüksəkliyi ilə qarşıladılar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək bildirdi ki, "Artıq bu gün 18-ci kənddir ki, mən sakinlərlə görüşürəm. Bu görüşlərimin əsas səbəbi problemlərin aradan qaldırılmasıdır. Hamınıza məlumdur ki, rayonda bir çox problemlər var. Daha çox mexanizmlərlə bağlı olan problemlərdir. Belə ki, rayonda 80 maşın-mexanizmə tələbat var. Bu gün ondan 40 ədədi mövcuddur ki, onun da 29-u işləmir. Cəmi 11 maşın istifadədir. Bu da müəyyən işləri geri salır. Bu problemin aradan qaldırılması üçün biz birgə çalışmalıyıq. Əminəm ki, mövcud olan bütün problemlər zaman-zaman öz həllini tapacaqdır".

Görüş iştirakçılarından ağsaqqal Kərəm Nəbiyev çıxış edərək rayon rəhbərliyinə yeni başladığı bu çətin və şərəfli vəzifədə sakinlər adından uğur arzuladı. Sakinlərdən Dursun Fərzəliyev, Ceyran Əliyeva, Əsəd Mahmudov, Novruz Alıcanov, Vilayət İsgəndərov, Təranə Yusifova, Xatın Nuriyeva, Musa Musayev və başqaları çıxış edərək kənddəki tibb məntəqəsinin, uşaq bağçasının və klub binasının köhnə, yararsız vəziyyətdə olmasından, poçt binasının isə olmamasından söz açdılar. Həmçinin qeyd etdilər ki, fermerlərin, təsərrüfatçıların mövsüm zamanı meyvə və tərəvəzləri təhvil vermək üçün yer yoxdur. Ona görə də qəbuletmə məntəqəsi olsa daha yaxşı olar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşə yekun vuraraq qaldırılan məsələlərin qısa müddətdə həll ediləcəyini bildirdi. Qeyd etdi ki, indiyə qədər mövcud olan laqeyd münasibətlərə son qoyulmalıdır. Bilin ki, sizin qaldırdığınız məsələlərə mən biganə qalmayacağam.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov növbəti görüşünü iyunun 23-də Daş Salahlı kəndinin sakinləri ilə keçirdi.

İcra başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək vurğuladı ki, bu gün rayonda mövcud problemlər var. Bu danılmaz faktdır. Ən böyük problemlərdən biri də su-kanalizasiya xəttinin çəkilməsidir ki, illərdir bu problem öz həllini tapmayıb. Lakin yaxın zamanda bu məsələ də həll ediləcəkdir. Kəndinizin 21 şəhid var. Mənim üçün şəhid ailələrinin problemlərinin həlli hər şeydən vacibdir. Mənim qapım onların üzünə hər zaman açıqdır.



Kənd sakinlərindən Mustafa Mahmudov, Flora Həsənova, Cavad Novruzov, Mədət Əliyev, Nizami Məmmədli, Aytən Abdurrəhimova, Cəmilə Qasımova, Aqil Məmmədov, Nürəddin Abdullayev, Natiq Xəlilov, Məmməd Omarov, Bərşad Məmmədov, Murğuz Süleymanov, Mustafa Əlvəndov, Şükufə Cəfərova, Hacı Süleymanov, Valodya Mahmudov söz alaraq qarşılaşdıqları problemlər barədə danışdılar. Qeyd etdilər ki, kənddə bankomat yoxdur. Kənd sakinlərinin əməkhaqqlarını, təqüdlərini almasında çətinliklər yaranır. Bundan başqa kənddə içməli su və suvarma suyundan əziyyət çəkirik. İşıq zəifdir. Kəndə demək olar ki, mikro avtobuslar gec-gec işləyir. Böyük kənd olmasına baxamayaraq bu gün kənddə olan tibb məntəqəsində doğum şöbəsi yoxdur. Görüşdə çıxış edən sakinlər şəxsi problemlərdən də danışdılar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov qaldırılan problemləri diqqətlə dinlədi və müvafiq tapşırıqlar verdi. Bildirdi ki, problemlər mövcuddur və onların həlli istiqamətində işlər görülür. Süründürməçilik və digər neqativ hallar qəti şəkildə aradan qaldırılmalıdır. Vətəndaşların qaldırdıqları məsələlər qısa müddətdə öz həllini tapmalıdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov növbəti görüşlərini iyunun 25-də Dəmirçilər və Ürkməzli kəndlərində keçirdi.

Dəmirçilərdə keçirilən görüşdə də problem və qayğılardan danışıldı.

Rayon rəhbərliyi kənd sakinləri ilə söhbət zamanı bildirdi ki, mənə kənddə olan problemlər məlumdur. Bu gün mən həm sizinlə tanış olmağa, həm də problemləri sizin öz dilinizdən eşitməyə gəlmişəm. Problemləri deməkdən çəkinməyin. Mən istəyirəm ki, kənddə təsərrüfat işləri genişləndirilsin, əhalinin sosial rifah halı yaxşılaşsın.

Sakinlərdən Səbuhi Səmədov, Təhməz Novruzov, Habil Xəlilov, şəhid ailə üzvlərindən Bahar və Yasəmən Qurbanovalar, Rövşən Orucov, Hadı Hüseynov, Cahan Qəmbərova və başqaları çıxış edərək işsizlik problemindən və digər şəxsi məsələlərdən söz açdılar.

Sonra icra başçısı Qarabağ əlili Habil Xəlilovun evinə baxdı və müvafiq göstərişlər verdi.

Həmin gün növbəti görüş Ürkməzli kəndində oldu. Burada da kənd sakinləri rayon rəhbərliyini çox səmimi qarşıladılar.



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək icra başçısı təyin olunduğu gündən keçən qısa zaman kəsiyində gördüyü işlərdən danışdı. Qeyd etdi ki, görüləsi işlər çoxdur. İstərdim ki, siz mənim öz dilimdən eşidəsiniz.

Kənd sakinlərindən Arzu Əhmədov ünvanlı sosial yardımla bağlı probleminin, kənddəki işıq dayaqlarının pis vəziyyətdə olmasından, Nüsrət Musayev evinin təmirə ehtiyacı olduğundan, Bayram Osmanov yol problemindən danışdılar. Şəhid anası Ayna Nəsirova, Nazim Osmanov, Çiyələk Vəliyeva, Flora İbrahimova, Samirə Şükürova, məktəb direktoru İlqar Miralayev, Sədaqət Qurbanova isə içməli su problemindən, kənddə bağçanın olmamasından və digər çatışmamazlıqlardan söhbət açdılar.

Sonra Rəcəb Babaşov kənd sakini Nüsrət Musayevin evinə baş çəkdi. Onu narahat edən məsələləri yerindəcə öyrəndi. Şəhid anası Ayna Nəsibovanın evində olan icra başçısı onun qayğıları ilə maraqlandı.

İyunun 27-də rayonun Orta Salahlı, Aşağı Salahlı və Qazaxbəyli kəndlərində keçirilən görüşlər də işgüzar və səmərəli keçdi.



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşlərdə çıxış edərək bildirdi ki, mən kəndlərdəki problemləri bilirəm. Ən böyük problem isə indiyə qədər əhaliyə göstərilən laqeydlikdir. Bunu aradan qaldırmaq üçün isə ilk növbədə insanların inamı geri qaytarılmalıdır.

Orta Salahlı kənd sakinlərindən Südabə Alıyeva, Sabir Göyçəyev, Səməd Mehdiyev, Nəbi Babacanov, Məmməd Süleymanov, Firdovsi Xiyalov, Gülbəniz Nəsibova, Lalə Xasayeva, Söylü Uzanova çıxış edərək kənd təsərrüfatı texnikalarının istifadəyə görə qiymətlərinin baha olmasından, içməli su problemindən, ünvanlı sosial yardım ala bilməmələrindən söz açdılar. Qeyd etdilər ki, problem və çatışmazlıqların olmasına baxmayaraq biz cənab başçı sizə inanırıq.

Aşağı Salahlı kənd sakini Mirzə Nuriyev üzüm qəbulu məntəqəsinin yaradılmasından, İlham Nəbiyev suvarma suyunun azlığından, Azər Salmanov marşurutların gec-gec gəlməsindən, xidmət haqqının yüksək olmasından, Çingiz Pənahov, Şakir İsgəndərov, Fatma Vəliyeva, Məzahir Hüseynov isə kənddə olan ümumi problemlərdən danışdılar. Şairə Tacirə Sarıyeva icra başçısına öz şeir kitabını təqdim etdi.

Sonra Rəcəb Babaşov kənddəki şəhidlər qəbirstanlığına baş çəkdi.

Qazaxbəyli kəndində keçirilən görüşdə də sakinlər problem və qayğılardan söhbət açdılar. Prezident təqaüdçüsü Kamran Salmanov kənddəki içməli su problemindən, Elxan Musayev, Gülarə Qocayeva, Mustafa Fərzəliyev drenaj kanallarının dolduğu üçün evlərinə su dolmasından, Bahar Vəliyeva, Yasin Babayev və başqaları iş yeri axtardıqlarından danışdılar.

Növbəti görüşlərdən biri iyunun 29-da Çaylı kəndində baş tutdu.

Bu kənddə də illərdən bəri yığılıb qalmış problemlər səsləndirildi. Sakinlərdən Qəzənfər Qocayev, Nəcməddin Bənnayev, Elşad Cəfərov, Yaqub Aslanov, Nofəl Hüseynəliyev, Müslüm Məmmədov, Rauf Sanıyev, İsmayıl İsmayılov, Aybəniz Carçıyeva, Nəzakət Məmmədrzayeva və başqaları söz alaraq kənddə uşaq bağçasının, örüş yerinin olmamasından, şəhidlərin xatirəsinə bulaq qoyulmamasından, su arxlarının pis vəziyyətdə olmasından, iş tapa və ünvanlı sosial yardım ala bilməmələrindən söz açdılar.

Rəcəb Babaşov görüşə yekun vuraraq qaldırılan bütün məsələlərə diqqətlə yanaşılacağını və onların zaman-zaman həll ediləcəyini bildirdi.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəxcəb Babaşovun kənd sakinləri ilə sonuncu görüşü həmin gün Kommuna kəndində oldu. İcra başçısı burada çıxış edərək bildirdi ki, keçirdiyi bütün görüşlərdə heç kim çörək istəmir, əhalinin tələbi yalnız odur ki, texnikanı ver, suyu ver. Bu da o deməkdir ki, camaat çalışmaq, məhsul bolluğu yaratmaq və öz güzəranını yaxşılaşdırmaq istəyir. Bilin ki, bu yolda mən sizə hər cür köməklik göstərəcəm, yardımçınız olacağam.

Kənd sakinlərindən Şölə Xasməmmədova, Ağa İsmayılov və başqaları söz alaraq içməli suyun az olmasından, suvarma suyunun çatışmazlığından, kəndə gələn marşurut avtobusların yaxşı işləməməsindən danışdılar.

Görüş başa çatdıqdan sonra rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhid Səlamət Həsənovun həyat yoldaşı Şölə Həsənovanın yaşadığı evə baş çəkdi və onun qayğıları ilə maraqlandı.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəxcəb Babaşov Qazaxbəyli kəndində məcburi köçkün ailələri üçün salınmış qəsəbədə olmuş, burada məskunlaşmış məcburi köçkünlərlə də görüş keçirmişdir.

**Elçin İSMAYIL**

# Rayonumuzda kənd təsərrüfatı məhsulları istehsalının artırılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə olmuşdur

**Bölgələrdə kənd təsərrüfatı işlərinin gedişi, bu sahənin inkişafı ilə əlaqədar mövcud ehtiyatların araşdırılması məqsədilə yaradılmış işçi qrupunun Qazaxda sahibkarların, fermerlərin və mütəxəssislərin iştirakı ilə geniş müşavirəsi keçirilmişdir. İşçi qrupunun üzvləri əvvəlcə rayonun Cəfərli kəndi ərazisində əkilmiş torpaq sahəsinə, 170 başlıq kökəltmə məntəqəsinə baxış keçirmişlər, Qazax Konserv zavodunun, Daş Salahlı kəndində toxumçuluq təsərrüfatının və "Aqrolizinq" ASC-nin Qazax bölməsinin fəaliyyəti ilə tanış olmuşlar.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Gənclər Mərkəzində keçirilən müşavirəni açaraq qeyd etmişdir ki, bu gün ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda qeyri-neft sektoruna əsaslanan iqtisadi-inkişaf modeli prioritet seçilmişdir. Qarşıda duran əsas məqsəd Azərbaycanda iri kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal gücündən səmərəli istifadə etmək, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaqdır.

Qazax rayonunun ümumi ərazisi 69229 hektar təşkil edir ki, bundan 15402 hektar dövlət mülkiyyətində saxlanılmış, 29353 hektarı bələdiyyə mülkiyyətinə, 24474 hektarı isə xüsusi mülkiyyətə verilmişdir. Rayonun 7663 hektar ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal olunmuş ərazinin 3522 hektarı kənd təsərrüfatına yararlı torpaq sahələridir. Rayon üzrə mövcud olan 47000 hektar kənd təsərrüfatına yararlı torpaqların 21180 hektarı əkin sahəsi, 613 hektarı çox illik bağlar, 1890 hektarı dinc, 927 hektarı biçənək, 22390 hektarı örüş-otlaq sahəsi kimi istifadə olunur. Rayon üzrə mövcud olan 21180 hektar əkin sahəsinin hazırda 14878 hektarı əkilmişdir. Rayonda kənd təsərrüfatının inkişafının sürətləndirilməsi üçün rayon kənd təsərrüfatı idarəsi yaradılmış və həmin idarənin inzibati binası üçün iki mərtəbəli mansarlı binanın tikintisi başa çatdırılmışdır.

Qazax rayonu respublikanın aparıcı üzümçülük rayonlarından biri olmuş, 8 min hektar üzüm bağlarından ümumi 60-65 min ton üzüm istehsal olunmuş, 7 ədəd üzüm qəbulu və emalı müəssisəsi fəaliyyət göstərmişdir.

Hazırda 362 hektar üzüm bağından 3822 ton üzüm istehsal olunur ki, üzüm qəbulu və emalı müəssisəsi olmadığına görə istehsal olunmuş üzümün satışında çətinliklər yaranır. Rayonda 10 min ton istehsal gücünə malik 1 ədəd şərab zavodunun olmasına baxmayaraq, hal-hazırda fəaliyyət göstərmir. Rayon ərazisində üzüm qəbulu məntəqələri, emal müəssisələri və məhsulun saxlanılması üçün soyuducu kameralar yaradılarsa üzümçülüyün inkişafına nail olmaq olar.

Qazax respublikanın həm də meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdiyi rayonlarındandır. Belə ki, il ərzində 15 min tonadək meyvə və 12 min tonadək tərəvəz məhsulları istehsal olunur. Lakin istehsal olunmuş meyvə və tərəvəz məhsullarının qəbulu üçün emal müəssisələri olmadığına görə bu sahənin inkişafı ləngiyir, potensial imkanlarından tam istifadə olunmur. Rayonda mövcud olan "Qazax Konserv Zavod" MMC-nin 5500 ton kartof məhsulu, 400 ton meyvə və tərəvəz saxlamaq üçün soyuducu kamerası vardır. Kartof istehsalçıları öz məhsullarını həmin kameralarda saxlayırlar. Bu il Birinci Şıxlı kəndi ərazisində "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" MMC yaradılmışdır. Müəssisə tərəfindən 350 hektar torpaq sahəsi icarəyə götürülmüş və həmin ərazidə kartofçuluğun inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bu da rayonda yeni iş yerlərinin yaradılmasına, kənd təsərrüfatının inkişafına öz töhfəsini verəcəkdir.



Rayon ərazisində "Asadov Kapital" MMC-nin Çaylı kənd taxıl terminalı fəaliyyət göstərir. Həmin taxıl terminalı 3000 ton taxıl tədarük etmək gücünə malikdir, 250 ton meyvə-tərəvəz məhsullarının saxlanılması üçün soyuducu kameraları vardır. Müəssisə terminalda və soyuducuda öz istehsalı olan məhsullarını saxlayır. Rayon əhalisindən isə məhsul qəbul etmir. Ona görə əhali tərəfindən yetişdirilən meyvə və tərəvəz məhsullarının tədarükü və emalı müəssisələri yaradılarsa əhalinin məşğulluğunun artırılması ilə yanaşı meyvəçilik və tərəvəzçilik sahələrinin inkişafına təkan verilmiş olar.

Əvvəllər rayonun dağətəyi kəndlərində tütünçülük əkini effektli olmuşdur.

Bu il rayon ərazisində 10 hektar tütün əkilmişdir. Tütünün qurudulması və qəbulu məntəqəsi olarsa, gələcəkdə daha çox tütün sahəsinin əkilib becərilməsinə əhalidə maraq artar. Rayonda 146175 baş xırda buynuzlu və 30333 baş iribuynuzlu mal-qara mövcuddur. Heyvandarlıqla məşğul olan 14 fermer təsərrüfatı, 4 kənd təsərrüfatı müəssisəsi vardır. İribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma işləri təşkil edilmişdir. 2015-ci ildə 435 baş iribuynuzlu heyvandan 354 baş bala, 2016-cı ilin birinci rübündə isə 148 baş iribuynuzlu heyvandan 76 baş sağlam bala alınmışdır. Maldarlıqla məşğul olan təsərrüfatların birində "Holşteyn-friz" cinsindən olan, Almaniyadan gətirilmiş 75 baş düyədən 76 baş bala almışdır. Həmin heyvanlar südlük istiqamətli cinslərdir. Gündəlik süd istehsalı hər heyvanın baş sayına görə orta hesabla 18-22 litrdir. Birinci Şıxlı kəndində 170 başlıq kökəltmə ferması tikilmişdir.

Qış otlaq torpaqlarının inzibati ərazi bölgüsündə Ağstafa rayonuna, yay otlaq torpaqlarının bir hissəsinin isə inzibati ərazi bölgüsündə Gədəbəy və Daşkəsən rayonlarına verildiyinə görə mal-qaranın baş sayına görə hal-hazırda Qazax rayonunun mövcud olan örüş sahəsi azlıq təşkil edir. Odur ki, həmin örüş sahələrinin Qazax rayonunun sərəncamına verilməsi rayonda heyvandarlığın inkisafı üçün daha səmərəli olar.

Rayonda ət və süd məhsullarının qəbulu və emalı müəssisələrinin mövcud olmaması rayon ərazisində fərdi və fermer təsərrüfatlarında istehsal olunan ət, süd və süd məhsullarının satışı üçün çətinlik yaradır. Bu çətinliyin aradan qaldırılması üçün rayonda ət və süd məhsullarının qəbulu və emalı müəssisələrinin yaradılmasına ehtiyac vardır.

Taxılçılıq rayonun iqtisadiyyatının əsasını təşkil edir. Əvvəlki ilə nisbətən taxıl səpini 2202 hektar artmışdır. Bugünədək rayon ərazisində 359 hektar taxıl sahəsi biçilmiş, biçinə 19 ədəd kombayn cəlb edilmişdir. Bundan əlavə rayonda kartofçuluğun, günəbaxanın və dən qarğıdalısının inkişaf etdirilməsinə də iqlim şəraiti imkan verir. Lakin texnikanın çatışmazlığı səpin və yığım dövründə çətinliklər yaradır. Belə ki, rayon ərazisində "Aqrolizinq" ASC-nin Şəmkir regional nümayəndəliyinin Qazax rayon bölməsi fəaliyyət göstərir. Qazax rayon bölməsində 40 ədəd kənd təsərrüfatı texnikası vardır ki, ondan da 29 ədədi yararsız vəziyyətdədir. Odur ki, "Aqrolizinq" ASC-nin Şəmkir regional nümayəndəliyinin Qazax rayon bölməsinə 80 ədəd texnikanın verilməsi vacibdir. Bu kənd təsərrüfatı bitkilərinin becərilməsi zamanı yaranan problemin həllinə müsbət təsir göstərər.

Rayonda mövcud olan 21180 hektar əkin sahəsindən yalnız 14628 hektarı suvarılan sahələrdir. Rayonun ümumi ərazisinin isə yalnız 21 faizi suvarılır.

Rayonun kənd təsərrüfatı bitkilərinin suvarılması üçün su mənbəyi Ermənistan ərazisindən qidalanan su tutumu 120 mln.m3 olan Ağstafaçay su anbarı, su tutumu 20 mln. m3 olan Coğazçay su anbarı və su tutumu 2,6 mln. m3 olan İncəsu çay su anbarlarıdır. Son illərdə müşahidə olunmuşdur ki, hava şəraitinin quraqlıq keçməsi ilə əlaqədar su anbarlarında normadan az su yığılır ki, bu da öz növbəsində kənd təsərrüfatı bitkilərinin vegitasiya dövründə suvarılmasında müəyyən çətinliklər yaradır. Bu problemlərin aradan qaldırılması üçün ümumi su tutumu 120 mln. m3 olan Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarının əkin sahələrini su ilə təmin edən Ağstafaçay su anbarının su təminatını yaxşılaşdırmaq məqsədi ilə Kür çayından pilləli nasos stansiyasının və d=1000 mm-lik boru xəttinin quraşdırılması vacibdir.

Ümumi uzunluğu 19,4 km. və su buraxma qabiliyyəti 1,5 m3/san olan rayonun Birinci Şıxlı, İkinci Şıxlı və Aslanbəyli kəndlərinin 1500 hektar əkin sahəsinə xidmət edən Şıxlı arxının Gürcüstan Respublikası ərazisində 3,1 km. uzunluğunda beton üzlük çəkilməsinə baxmayaraq, Qazax rayonu ərazisindən keçən 16,3 km. olan hissəsinə də beton üzlük çəkilərsə əkin sahələrinin su təminatını yaxşılaşdırmaqla bərabər su itkisini azaltmaq olar.

Qazax rayonunun 3800 hektar, Ağstafa rayonunun 3500 hektar suvarılan sahələrinə xidmət edən uzunluğu 9,9 km suburaxma qabiliyyəti 3,5 m3/san torpaq məcralı "Axmaz" arxına və müvafiq olaraq uzunluğu 15 km suburaxma qabiliyyəti 3,5 m3/san olan torpaq məcralı "Zor" arxına beton üzlük çəkilərsə suvarılan torpaqların su təminatını yaxşılaşdırmaqla su itkilərini azaltmaq mümkündür. Rayonun Çaylı və Kommuna kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün uzunluğu 9 km olan torpaq məcralı Xanlıqlar arxına beton üzlüyün çəkilməsi məqsədəuyğundur.

Rayonda suvarılan torpaqların şoranlaşmasının qarşısının alınması üçün 1979-cu ildə Daş Salahlı kəndində 8,6 km, Qazaxbəyli kəndində 9,3 km, Orta Salahlı kəndində 4 km və Aşağı Salahlı kəndində 36 km (cəmi 57,9 km) uzunluğunda kollektor-drenaj şəbəkəsi çəkilmişdir. Həmin kollektor-drenaj şəbəkəsi 1200 hektar əraziyə xidmət edirdi. Hazırda kollektor-drenaj şəbəkəsi yararsız vəziyyətə düşdüyündən yeraltı qrunt sularının üzə çıxması nəticəsində əkin sahələrində şoranlaşma yaranır. Bu qüsurların aradan qaldırılması üçün yuxarıda qeyd olunan kəndlərin ərazilərində yeni kollektor-drenaj şəbəkəsinin çəkilməsi məqsədəuyğundur.

Müşavirədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının aqrar siyasəti məsələləri şöbəsinin müdiri, İşçi qrupunun rəhbəri Azər Əmiraslanov çıxış edərək dövlət başçısının bölgələrdə kənd təsərrüfatının inkişafı istiqamətində qarşıya qoyduğu konkret vəzifələrdən, bu sahəyə göstərilən dövlət qayğısından danışmışdır. İşçi qurpunun fəaliyyət istiqamətlərini şərh edən şöbə müdiri bildirmişdir ki, qrup tərəfindən indiyədək 30-dan çox rayonda kənd təsərrüfatının inkişaf perspektivləri araşdırılmış və bununla bağlı müşavirələr keçirilmişdir. A.Əmiraslanov ölkədə aqrar sektorun inkişaf istiqamətlərindən, bu sahəyə göstərilən dövlət qayğısından danışaraq Qazaxda taxılçılıq və heyvandarlıqla yanaşı üzümçülüyün, bağçılığın, meyvə və tərəvəzçiliyin böyük perspektivlərindən danışmış və bu gəlirli sahələrdə görüləsi konkret işlər barədə məlumat vermişdir.

Sonra müşavirə diskussiya şəraitində davam etdirilmişdir. Sahibkarların, fermerlərin və rayon sakinlərinin sualları və təklifləri cavablandırılmışdır. Müşavirədə rayonun əkin sahələrinin suvarma suyu ilə tam təmin olunması, yeni kənd təsərrüfatı texnikalarının alınması, əkin traktorlarının və kombaynların sayının artırılması, üzüm və süd məhsullarının emalı müəssisələrinin, üzüm və digər kənd təsərrüfatı məhsullarının saxlanılması üçün soyuducu kameralarının yaradılması, rayonda qazılan subartezian quyularının sayının artırılması, su itkisinin qarşısı almaq üçün su arxlarının beton üzlüyə alınması, relyefə uyğun çiləmə üsulu ilə suvarmanın aparılması, su nasoslarının təzələnməsi, Kür çayı boyunca sahilbərkitmə işlərinin aparılması, tütünün qurudulması üçün məntəqənin tikilməsi və s. məsələlər barədə təkliflər səsləndirilmişdir.

Verilən təkliflər araşdırılmaq və icra olunmaq üçün nəzarətə götürülmüşdür.

## 23 İYUN - DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI GÜNÜDÜR

# PEŞƏ BAYRAMINIZ MÜBARƏK

**Rayonumuzda 23 iyun - Dövlət Qulluqçularının peşə bayramı ilə əlaqədar toplantı keçirilmişdir. Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək abidəsi önünə tər çiçək dəstələri qoymuşdur.**

Gənclər Mərkəzində keçirilən toplantıda rayon İcra Hakimiyyətində və yerli İcra Hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçuları və KİV nümayəndələri iştirak etmişdir.

Əvvəlcə Dövlət Himni səsləndirilmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq peşə bayramı münasibətilə dövlət qulluqçularını təbrik etmiş, onlara uzun ömür, möhkəm can sağlığı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının müdrik rəhbərliyi altında səmərəli fəaliyyət arzulamışdır. Sonra bildirmişdir ki, müstəqil Azərbaycan dövlətində cəmiyyətin demokratikləşdirilməsi üçün dövlət idarəetməsində köklü islahatların aparılması prinsipial əhəmiyyət kəsb etdiyi üçün ulu öndər Heydər Əliyev 1998-ci il dekabrın 29-da "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Fərman imzaladı. Dövlət qulluğunun səmərəliliyinin artırılması, dövlət aparatının təkmilləşdirilməsi, dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsi, onların sosial müdafiəsinin, maddi müstəqilliyinin təmin edilməsi və eyni zamanda məsuliyyətlərinin artırılması üçün 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" qanun qəbul edildi. Bu qanunun qəbul edilməsi ilə



Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyuldu.

Prezident İlham Əliyev ulu öndərin bütün sahələrdə, o cümlədən dövlət qulluğunun təkmilləşdirilməsi istiqamətində başladığı işlərin uğurlu inkişafını sürətləndirdi. Respublikada dövlət qulluğunun daha yaxşı təşkili və idarə olunması məqsədilə İlham Əliyevin imzaladığı 2005-ci il 19 yanvar tarixli Fərmanı əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə komissiya yaradıldı.

Prezident 2006-cı il iyunun 22-də dövlət qulluqçularına müraciətində çağdaş, sivil, demokratik vətəndaş cəmiyyətinin tələblərinə tam cavab verən dövlət idarəçiliyi sisteminin daim inkişaf etdirilməsi üçün dövlət qulluqçularının qarşısında əlavə vəzifələr qoymuşdur. Belə ki, hər bir dövlət qulluqçusu dünyada gedən qlobal proseslərdən xəbərdar olmalı, informasiya texnologiyalarını, demokratik idarəçilik metodlarını mənimsəməli, müasir düşüncə sahibi olmalıdır. Başqa sözlə desək, İlham Əliyev dövlətçilik konsepsiyasını məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu strateji kursu üzərində formalaşdırır və onu yeni dövrün tələblərinə uyğun zənginləşdirir. Məhz bunun nəticəsidir ki, bir çox dövlətlərin onilliklərlə keçdiyi yolu qısa müddətə keçən Azərbaycan öz rəhbərinin əzmkar fəaliyyəti sayəsində qarşıya qoyduğu məqsədlərə çatmışdır.

İyun ayının 22-də Prezident İlham Əliyev "Dövlət qulluqçularının təltif edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin Sərəncamla dövlət qulluğunda uzun müddət səmərəli fəaliyyət göstərən bir qrup şəxslər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Dövlət qulluğunda fərqlənməyə görə" və "Tərəqqi" medalları ilə təltif olunmuşdur. Təltif olunanlar arasında Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Orucovun da adı vardır. Əlbəttə, bu bizi çox sevindirir. Bunun özü də Prezident İlham Əliyevın Qazaxa və qazaxlılara göstərdiyi diqqət və qayğının əyani təzahürüdür. Onu təbrik edirik, bu çətin, məsuliyyətli, lakin şərəfli işində ona möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayırıq.

Sonra dövlət qulluqçularından Nizaməddin Babanlı, Həmid Pənahov, Elçin Nəsibov və başqaları çıxış etmişlər.

Dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiyinə görə ölkə prezidenti İlham Əliyev cənablarının Sərəncamınə əsasən "Tərəqqi medalı" ilə təltif olunmuş dövlət qulluqçusu Məhəmməd Orucov çıxış etmiş, dövlət başçısına öz dərin minnətdarlığını bildirmişdir. Ulu öndər Heydər Əliyev və ölkə prezidenti ilə bağlı ən əziz və xoş xatirələrini danışmışdır.

# Qazax-Kosalar avtomobil yolu yenidən qurulur

**"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Qazax-Kosalar avtomobil yolu yenidən qurulur.**



8 kilometr uzunluğunda, 4-5 metr enində olan Qazax-Kosalar avtomobil yolu torpaq və çınqıl örtüklü olduğundan burda xüsusən də payız-qış mövsümündə gediş-gəliş xeyli çətinləşirdi. Artıq bu problemin aradan qaldırlması üçün işlər görülür.

Yenidənqurma işləri çərçivəsində yol boyu yeni yol yatağı və yol əsası tikilir. İki hərəkət zolaqlı olmaqla yolun hərəkət hissəsinin eni 6 metr, hər iki istiqamət üzrə 0,5 metr bərkidi zolaq və 1,5 metr çiyinlər olmaqla yol yatağının eni 10 metr təşkil edir.

Bundan başqa suların ötürülməsini təmin etmək üçün yol boyu 12 yerdə 300 və 500 millimetr diametrli suötürücü boruların tikintisi aparılıb. Yolun 3-cü kilometrliyində su kanalı üzərində yerləşən körpünün də təmir edilməsi nəzərdə tutulub. Körpünün uzunluğu 10 metr, eni isə 6 metrdir.

Bütün bu işlər yekunlaşdıqdan sonra yolun asfaltlanması istiqamətində işlərə başlanılacaq. Ümumilikdə yolun 48 min kvadratmetr sahəsinə ikiqat olmaqla yüksək keyfiyyətli asfalt-beton örtüyünün döşənməsi planlaşdırılır.

Qeyd olunub ki, 8 kilometr uzunluğunda olan Qazax-Kosalar avtomobil yolunun yenidən qurulması ilə iki yaşayış məntəqəsinin 10 minə yaxın əhalisinin birbaşa olaraq Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna və rayon mərkəzinə rahat və maneəsiz şəkildə gediş-gəlişi təmin olunur.

**AZƏRTAC**

# Məzəm kəndinə istinad divarları çəkilir



**Ermənistanla 168 km sərhəddə yerləşən Qazax rayonunun 7 kəndi 25 ildən çoxdur ki, işğal olunub. Rayonun 5 kəndi isə ermənilərin daima atəşi altındadır. Bunlardan sərhəddə ən yaxın olanı rayonun Məzəm kəndidir. Münaqişə başlayan vaxtdan bəri 30 evdən ibarət olan bu kənd şəhidlər verib. Onlardan 4 hərbçi öz torpaqlarının müdafiəsi yolunda canından keçib. 1 nəfər kənd sakini Mərifət Nəsibov isə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.**

Məzəmin ətrafında düşmənin 6 atəş nöqtəsi var. 25 ildən çoxdur ki, ermənilər bu atəş nöqtələrindən kəndi atəşə tutur, əhalini daima qorxu altında saxlamağa çalışırlar. Bu da kənd sakinlərinin normal yaşamalarına mane olur, dinc adamları düşmən güllələrinə tuş gətirir. Artıq 4 nəfər kənd sakini ayrı-ayrı vaxtlarda düşmən gülləsinin qurbanı olmuşdur. Düzdür, kəndin ortasından keçən yolun bir tərəfinə müdafiə hasarları çəkilmişdir. Lakin bu, kəndin pərakəndə halda yerləşən yaşayış evlərinin və orada yaşayan sakinlərin təhlükəsizliyini təmin etmir. Bunun nəticəsidir ki, evlərin divarları, qapı və pəncərələri düşmən güllələrindən deşik-deşik olmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov yaranmış təhlükəli vəziyyəti nəzərə alaraq ilk növbədə atəş nöqtələrinə ən yaxın məsafədə yerləşən evlərin qarşısına müdafiə hasarlarının çəkilməsi barədə göstəriş vermışdir. Artıq kənddəki 16 evin qarşısına istinad divarlarının çəkilməsi başa çatmışdır. 600 metr uzunluğunda və 3 metr hündürlüyündə olan bu hasarlar kənd sakinlərini düşmənin atdığı güllərdən qoruyur. Daha yaşlı adamlarla yanaşı uşaqlar da öz evlərinin həyətlərində rahat hərəkət edə, normal yaşaya bilirlər.

Bu günlərdə icra başçısı yenidən Məzəm kəndində sakinlərlə görüşmüş və daha 14 evin qarşısına istinad divarlarının çəkilməsi barədə göstəriş vermişdir. Beləliklə, uzun illərdən bəri Məzəm kəndinin sakinlərini gözləyən təhlükə aradan qalxmışdır. Bu gün məzəmlilər düşmənlə nə yaxın məsafədə yerləşmələrinə baxmayaraq qorxusuz və asudə həyat yaşayırlar.

**Elçin İSMAYIL**



### 26 İYUN AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ GÜNÜDÜR

# GÜCLÜ ORDU GÜCLÜ DÖVLƏT DEMƏKDİR



**Rayonumuzdakı "N" saylı hərbi hissədə 26 iyun-Silahlı Qüvvələr Gününə həsr olunmuş bayram tədbiri keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı, aparatın məsul işçiləri, hərbi hissə komandiri və şəxsi heyəti, Qarabağ müharibəsi veteranları və əlilləri, şəhid ailələrinin üzvləri və KİV nümayəndələri iştirak etmişdir.**

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin əziz xatirəsini anmış və abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.

Tədbiri "N" saylı hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, polkovnik-leytenant Elmar Zeynalabdinov açmışdır. "N" saylı hərbi hissənin komandiri, polkovnik İdris Məhərrəmov Azərbaycan Respublikasının Müdafiə Naziri Zakir Həsənovun təbrik məktubunu oxumuş və çıxış etmişdir.



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək Milli Ordumuzun yaranmasının 98-ci ildönümü münasibətilə iştirakçıları təbrik edərək bildirmişdir ki, Azərbaycan Milli Ordusunun yaranması çox çətin, mürəkkəb və ziddiyyətli bir yol keçmişdir. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanılmışdır. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyulmuşdur. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda iqtisadi inkişafın sürətləndirilməsi ölkəmizin təhlükəsizlik və müdafiə gücünün artmasına bilavasitə təsir göstərmiş, silahlı qüvvələrdə modern islahatlar aparmağa imkan vermiş, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, hərbi qulluqçuların sosial vəziyyətinin daha da yaxşılaşmasına səbəb olmuşdur. Respublika Prezidenti İlham Əliyevin müntəzəm olaraq cəbhə bölgələrinə səfər edərək əsgər və zabitlərlə görüşlər keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara Vətənin mükafatlarını təqdim etməsi silahlı qüvvələrimizin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratmış və onları torpaqlarımızın işğaldan azad olunmasında yeni-yeni qələbələrə ruhlandırmışdır. Bu gün Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır.

Sonra şəhid ailələri adından Kifayət Sabiri, Silahlı Qüvvələrin "Ehtiyatda olan zabitlər" Konfederasiyası Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Qazax rayon şöbəsinin sədri Xasay Balayev, jurnalist Arif İbrahimov və başqaları çıxış etmişlər.

Bayram tədbiri hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuların Fəxri Fərman və hədiyyələrlə mükafatlandırılması, bayram süfrəsi və geniş konsert proqramı ilə davam etdirilmişdir.

# "DAHA MƏN TƏNHA DEYİLƏM"

## BU SÖZLƏRİ XANLIQLAR KƏND SAKİNİ, 90 YAŞLI ŞAHNİYAR YUSİFOVA SÖYLƏDİ

**Həyatda hər bir insan abad, yaraşıqlı evinin olması arzusu ilə yaşayır. İnsan yaşadığı ev abad və yaraşıqlı olanda onun həyatı da normal keçir. Və insan yaşadıqca həyat sürdüyü ev doğma ocağa çevrilir. Xanlıqlar kənd sakini Şahniyar Əziz qızı Yusifova adi bir insan ömrü yaşamışdır. Sovet dönəmində kənd təsərrüfatının müxtəlif sahələrində çalışmış, öz halal zəhməti ilə dolanmışdır.**



Çalışqan olmasına baxmayaraq həyat onun üzünə gülməmiş və ömrünün ahıl çağlarında tənha qalmışdır. Köməksiz və kimsəsiz olan bu qadın vaxtilə rayon rəhbərliyindən, insanlardan imdad diləmiş, kömək istəmişdir. Bu tənha qadının ən böyük arzusu yaşamaq üçün normal bir evinin olması idi. Bu arzu ilə çox adamlara ağız açmış, çox qapılar döymüşdü Şahniyar ana. Lakin arzusu elə arzu olaraq da qalmışdı.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən həyatımızın bütün sahələrinə diqqət yetirir, insanlara qayğı ilə yanaşır. Rayon rəhbərliyinin ağsaqqallara, ağbirçəklərə olan hörmətini Şahniyar Yusifovanın timsalında aydın şəkildə görmək olar. Rayon rəhbərliyinin tapşırığına əsasən Ş.Yusifovanın vaxtı ilə yaşadığı uçuq, kimsəsiz daxmanın yerində yeni ev tikilmişdir. Ev inşa edilib başa çatdıqdan sonra rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Ş.Yusifovaya yenidən baş çəkmişdir. İcra başçısını böyük sevgi və mehribanlıqla qarşılayan 90 yaşlı bu tənha qadın ona öz sonsuz hörmət və ehtiramını bildirmişdir. "Allah axır ki, mənim dualarımı qəbul etdi, səsimi eşitdi. Rəcəb müəllimi mənə arxa, dayaq kimi göndərdi- söyləyir Şahniyar Yusifova. Elə bilirəm ki, yenidən dünyaya gəlmişəm. Axır ki, mənim də öz evim, öz ocağım oldu". Ş.Yusifova onu da dedi ki, artıq mən tənha deyiləm.

**Elçin İSMAYIL**

# 70 YAŞIN MÜBARƏK

**Bu günlərdə "Əməkdar jurnalist", "Qızıl qələm" mükafatı laureatı, "Kirpi" jurnalının baş redaktorunun müavini Sərhəd Məmmədovun 70 yaşı tamam olmuşdur.**



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bu münasibətlə Sərhəd Məmmədovu qəbul etmişdir. Səmimi şəraitdə keçən görüşdə Rəcəb Babaşov anadan olmasının 70 illiyi münasibətilə Sərhəd Məmmədovu təbrik etmiş, ona uzun ömür, cansağlığı və jurnalistlik fəaliyyətində yeni-yeni uğurlar arzulamışdır. Qeyd etmişdir ki, bu gün Azərbaycan mətbuatı özünün ən yüksək inkişaf dövrünü yaşayır. Qələm sahibləri ölkəmizdə gedən quruculuq işlərini geniş təbliğ edir, müstəqil Azərbaycan dövlətinin tarixini yazırlar. Bu gün Azərbaycan mətbuatında öz sözü, öz dəst-xətti olan onlarca jurnalistlərimiz vardır. Sərhəd Məmmədov bölgədə yaşamasına baxmayaraq həmişə öz tutarlı məqalələri, jurnalist araşdırmaları, publisistik yazıları ilə diqqəti cəlb etmiş, Azərbaycan jurnalistikasına öz töhfəsini vermişdir. Səmərəli əməyinin nəticəsidir ki, S.Məmmədov Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycanın Əməkdar jurnalisti" adına layiq görülmüşdür.

Görüşdə S.Məmmədov onu qəbul etdiyinə, yaradıcılığına yüksək qiymət verdiyinə, ona diqqət və qayğı göstərdiyinə görə Rəcəb Babaşova öz dərin minnətdarlığını bildirmiş və öz jurnalist fəaliyyətindən danışmışdır. Söyləmişdir ki, uzun müddət Qazaxın "Qalibiyyət bayrağı", yəni indiki "Göyəzən" qəzetində müxtəlif vəzifələrdə çalışmışam. Elə əmək fəaliyyətimin çox hissəsi "Göyəzən"lə bağlıdır. Rayonda işləməklə yanaşı, respublika qəzetlərində də müntəzəm olaraq çıxış etmişəm. Fəaliyyətim dövründə ölkəmiz üçün, xalqımız üçün mühüm əhəmiyyət kəsb edən mövzulardan yazmışam. Elə ona görə də mənim imzam imzalar içində seçilib.

Görüşün sonunda S.Məmmədov rayon rəhbərliyinə ona göstərdiyi diqqət və qayğıya görə bir daha öz minnətdarlığını bildirmişdir.

Onu da qeyd edək ki, S.Məmmədov rayon İcra Hakimiyyəti Başçısının Fəxri Fərmanı ilə təltif edilmişdir.

**Xuraman ƏZİMOVA**

## Qazax rayon prokurorluğu əməkdaşları tərəfindən 2016-cı ilin 2-ci yarsında vətəndaşların yerlərdə qəbuluna dair

## QRAFİK

| S/№ | Qəbul aparılan kəndlərin adı | Qəbul edən şəxs | Qəbul aparılan gün, ay, saat |
|---|---|---|---|
| 1 | Quşçu Ayrım və Məzəm kəndi | Prokuror Əlirza Babayev | 14 iyul 10:00 |
| 2 | Alpoud və Abbasbəyli kəndləri | Prokuror müavini Rəfael Həsənov | 27 iyul 10:00 |
| 3 | Aşağı Salahlı kəndi | Prokuror köməkçisi Nəriman Əsədov | 10 avqust 10:00 |
| 4 | Daş Salahlı kəndi | Prokuror Əlirza Babayev | 17 avqust 10:00 |
| 5 | Kosalar kəndi | Prokuror müavini Rəfael Həsənov | 07 sentyabr 10:00 |
| 6 | Dəmirçilər və Ürkməzli kəndləri | Prokuror köməkçisi Nəriman Əsədov | 21 sentyabr 10:00 |
| 7 | Çaylı və Kommuna kəndləri | Prokuror Əlirza Babayev | 12 oktyabr 10:00 |
| 8 | Xanlıqlar kəndi | Prokuror müavini Rəfael Həsənov | 26 oktyabr 10:00 |
| 9 | Yuxarı Salahlı kəndi | Prokuror köməkçisi Nəriman Əsədov | 16 noyabr 10:00 |
| 10 | Orta Salahlı və Qazaxbəyli kəndləri | Prokuror Əlirza Babayev | 23 noyabr 10:00 |
| 11 | Ağköynək və Qarapapaq kəndləri | Prokuror müavini Rəfael Həsənov | 14 dekabr 10:00 |

**İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərməkdir. Əbəs yerə deməyiblər ki, "Torpaq, əgər uğrunda ölən varsa Vətəndir". Bəli, bu yolda minlərlə igid Azərbaycan oğulları öz canlarından keçərək şəhidlik zirvəsinə ucalıb. Öz torpaqlarını qanları bahasına qoruyub.**

# ƏN UCA ZİRVƏDİR ŞƏHİDİN ADI

Bu gün düşmənlə 168 km məsafədə yerləşən Qazax rayonu da torpaqlarımızın ərazi bütövlüyünün qorunmasında yüzlərlə şəhid verib. Neçə ana oğulsuz, neçə körpə atasız, neçə ev başsız qalıb. Neçə canlar fəda edilib Vətən uğrunda. Öz həyatlarını qurban verən şəhidlərimizə olan hörmət hissi ilk olaraq şəhidlər qəbiristanlığından, onların uyuduğu məkandan başlayır. Bəli, ilk üz tutacağımız məkan, ziyarət edəcəyimiz ünvan onların qəbirləri olur. Bu cür igid oğullarımıza, onların ruhuna ehtiram hissi ilə yanaşmaq isə hər birimizin vətəndaşlıq borcudur.



Son zamanlarda şəhidlər qəbiristanlığında yaranan vəziyyət heç də ürəkaçan deyildi. Göstərilən laqeyd münasibətdən, baxımsızlıq ucbatından qəbiristanlıqda xoşagəlməz hal yaranmışdı. Belə ki, əksər qəbirlərin baş daşları uçmuş, qəbirlərin aralarını isə alaq otları basmışdı. Qəbiristanlıqda şəhidlərimizə, onların adına yaraşmayan vəziyyət vardı. Bu isə şəhidlərimizin doğmalarını, ailə üzvlərini narahat edir, haqlı narazılığına səbəb olurdu. Övladlarına qarşı olan hörmətsizliyi qəbul edə bilmirdilər. Dəfələrlə bu məsələ ilə bağlı aidiyyatı qurumlara müraciət etsələr də bir nəticə olmamışdı. Lakin Rəcəb Babşov icra başçısı təyin olunduqdan sonra hər şey dəyişdi. Digər məsələlər kimi bu da öz həllini tapdı. Həm də tez bir zamanda.



Bəli, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən şəhid ailələrinə xüsusi diqqət ayırdı, onların problemləri ilə yaxından maraqlandı. İlk növbədə şəhidlərin uyuduğu qəbiristanlığı ziyarət etdi, oranı abadlaşdırmaq üçün xüsusi tapşırıqlar verdi. Ən əsası isə R.Babaşov bu işi şəhid ailələri ona müraciət etmədən etdi.

Verilən tapşırıqlar nəticəsində dərhal abadlıq-bərpa işlərinə başlanıldı. Belə ki, qəbiristanlıq alaq otdan təmizləndi, yerə tamet plitələr düzüldü. Yararsız hala düşən sinə daşları bərpa edildi. Eyni zamanda yeni yaşıllıq salındı. Şəhidlərin xatirəsinə çəkilmiş bulaqda təmir-bərpa işləri aparıldı. Bir sözlə, qəbiristanlıqda şəhidlərin adına layiq məqsədyönlü işlər görüldü. Böyük əminlik hissi ilə deyə bilərik ki, bu, Rəcəb Babaşov tərəfindən şəhidlərimizə və şəhid ailələrinə göstərilən diqqət və qayğının ən bariz nümunəsidir.

Bu günlərdə aparılan bərpa işlərindən sonra İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, rayon ağsaqqaları, KİV nümayəndələri və şəhid ailələrinin iştirakı ilə şəhidlər qəbiristanlığı ziyarət olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin birinci müavini Fərman Nağdalıyev ziyarət mərasimində çıxış edərək qeyd etmişdir ki, şəhidlər heç vaxt unudulmayacaq. Onlar daim qəlblərdə yaşayacaq. Dövlətimizin sərhədləri və ərazi bütövlüyünü qoruyarkən canından, qanından keçən insanlar hər zaman hörmətə layiqdirlər. Bugünkü gənclərin vətənpərvər ruhda tərbiyə olunmasında şəhidlik məktəbinin böyük rolu var. Çünki onlar torpaqlarımız üçün canlarından keçib, şəhidlik zirvəsinə yüksəlmişlər. Hər kəsə şəhidlik zirvəsinə ucalmaq qismət olmur. Gələcəyimiz olan gənc nəsli bu ruhda tərbiyə etməliyik ki, torpağımıza, yurd-yuvamıza olan sevgi onların qanına, canına hopsun. Vətən, sadəcə, müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Bu gün ölkəmizdə şəhid ailələrinə hər zaman diqqət və qayğı göstərilir. Şəhid adlarının əbədiləşdirilməsi, şəhid ailələrinin, Milli Qəhrəmanların, müharibə əlillərinin və veteranların sosial təminatının yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir.

Şəhid ailələrindən İdris və Rəxmayə Süleymanovlar, Svetlana Həsənova, Gülyanax Əliyeva, Xanımzər Abdalova, Zeynəb Əhmədova, Nazxanım Talaxadze və Fazilə Məmmədova qeyd etdilər ki, şəhidlərin uyuduğu qəbiristanlığın baxımsızlığı bizi həmişə narahat edirdi. Buradakı şərait şəhidlərimizə olan diqqətsizlikdən, laqeydlikdən xəbər verirdi. Biz həmişə buraya gələndə iki dəfə ağlayırdıq. Bir öz doğmalarımıza görə, bir də onların baxımsız qalan qəbirlərinə görə. Bu gün isə burada görülən işlər göz qabağındadır. İfadə etməkdə çətinlik çəkirik. Artıq biz rahatıq ki, şəhidlərimizin ruhu şaddır, qəbirlərində rahat uyuyurlar. Biz şəhid ailələri bütün bunlara görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin və sonsuz minnətdarlığımızı bildiririk.



Ziyarətə gələnlər ürək sözlərini söylədikdən sonra abadlıq-bərpa işləri ilə tanış oldular, qəbirlərə baş çəkdilər və şəhidlərin əziz xatirəsi yad olundu.

**Nüşabə HÜSEYNOVA**

# "Qazax mahalının şairləri" kitabının təqdimatı olmuşdur

**Ədəbiyyat Muzeyində "Qazax mahalının şairləri" kitabının təqdimat mərasimi olmuşdur. Mərasimdə Qazax rayon İcra Hakimiyyətinin məsul işçiləri, Azərbaycan Yazıçılar Birliyinin nümayəndəsi, Qazax mahalının ağsaqqal və gənc şairləri, Tovuz və Ağstafa rayonlarından gəlmiş qonaqlar, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq şairlər yurdu olan Qazax rayonunun mədəniyyətimizdə, ədəbiyyatımızda, incəsənətimizdə özünəməxsus yer tutmasından danışmışdır. Bildirmişdir ki, Qazax bölgəsi o qədər də böyük deyil, lakin şairlər yurdu adını qazanmaq böyük şərəfdir. Qazaxdakı şeir-sənət dühaları ilə təkcə Azərbaycan, Qafqaz deyil, bütün bəşəriyyət fəxr edə bilər. Bu gün Qazax rayonunda əsl poeziya bayramıdır. Bu gözəl möhtəşəm muzeydə "Qazax mahalının şairləri" kitabının təqdimat mərasimi keçirilir. Bildiyiniz kimi, bu Ədəbiyyat Muzeyi Respublika Prezidenti İlham Əliyevin 01 iyun 2012-ci il tarixli Sərəncamına əsasən tikilmişdir. Bu, dövlət başçısının ədəbiyyatımıza, incəsənətimizə və mədəniyyətimizə göstərdiyi ən böyük diqqət və qayğıdır. "Qazax mahalının şairləri" kitabının nəşr olunması və geniş oxucu kütləsinə təqdim olunması bizim hamımızı sevindirir. Milli-mənəvi dəyərlərimizə, soykökünə bağlı olan bu diyarda ta qədimdən bu günə qədər dünya şöhrətli sənətkarlar olmuşdur. Onlar bu gün də var və sabah da olacaqlar. Qazax bölgəsindən elə dahilər, dühalar var ki, cild-cild kitablara sığmaz. Bir daha hamınızı təbrik edirəm, möhkəm cansağlığı və yaradıcılıq fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sonra AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, filialın ədəbi məsləhətçisi, şair Mustafa Rasimoğlu, gənc şair, prezident təqaüdçüsü Taleh Mansur, AYB-nin Mətbuat Katibi Xəyal Rza, şair Əlağdin İncəli, qonaqlardan şair İsa Cavadoğlu, Firdovsi Heydərli və başqaları çıxış etmişlər. Çıxışlarda ədəbiyyatımıza, incəsənətimizə və mədəniyyətimizə yaradılmış gözəl şəraitə, yaradıcı insanlara göstərilən böyük diqqət və qayğıya görə Ölkə Prezidenti İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova dərin minnətdarlıq hissi ifadə olunmuşdur.

### İTMİŞDİR

Musayev Siyavuş Zirəddin oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20 TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr) MOB: (055) 621-03-53

KAPİTAL BANK BANK HESAB № AZ69AİİB38060019443660233136 VÖEN: 4200134061 KOD: 200361 QEYDİYYAT №442 TİRAJ: 2000 SİFARİŞ: 1913

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Fotolar: Salmanındır.